1980-ci illərin ikinci yarısından başlayaraq, müasir ədəbi prosesin mənzərəsi öz simasını, qəhrəmanını, mövzu və problemlərini, ən əsası isə üslub istiqamətlərini əhəmiyyətli dərəcədə dəyişməyə başladı. Bütün bunlar cəmiyyətdə baş verən nəinki ictimai-siyasi dəyişikliklərlə, zamanın tarixi ab-havası ilə, həm də ədəbiyyatın inkişaf qanunauyğunluqları ilə şərtləndirilirdi. Qeyd olunan dövrdə müxtəlif üslub təmayüllərində yeniliklərin yaranması bir çox, ilk öncə, janrla bağlı proseslərin nəticəsi idi. Bu bir əsər daxilində müxtəlif janr elementlərinin birləşməsi yolu ilə ayrı-ayrı ənənəvi janrların transformasiyası, arxaik janr strukturlarının müasirləşdirilməsi, yeni müəllif janrlarının və s. yaranması idi.

Əminliklə demək olar ki, bu dövrdə nəsrin üslub novatorluğu, zamanın əsas üslub təmayülləri yeni janrların yaranması ilə sıx bağlı idi. Bir çox tədqiqatçıların qeyd etdiyi kimi, avanqard, modernizm, sürrealizm və impressionizmin canlanması, realizmin modernist cərəyan və hərəkatlarla bərabər mövcud olması və s. bu kimi hadisələr qeyd olunan dövrdə heç də az əhəmiyyət kəsb etmirdi.

Üslub və janr problemi hər zaman tədqiqatçılar üçün böyük maraq kəsb etmişdir. Ədəbiyyatın hər bir inkişaf pilləsində biz üslublarla yanaşı janr sisteminin də yenilənməsini müşahidə edirik. Bu janr-üslub problematikasının tədqiqində yeganə maneə deyil. Əsas çətinlik ilk öncə ondan ibarətdir ki, bir-birilə sıx bağlı və qarşılıqlı əlaqələri olan "üslub" və "janr" anlamlarının təyin edilməsində indiyədək vahid bir fikir yoxdur. Ona

görə də ədəbiyyatda hər dəfə janr palitrasını fəal yenilənməsi baş verəndə, ədəbiyyat tarixində üslub nəzəriyyəsinə diqqət də yenidən canlanır.

XX əsrin sonu ədəbiyyat ən müxtəlif üslubların zənginliyi və eyni zamanda əski janr formalarının transformasiyası və yeni janrların yaranması ilə fərqlənir. Təbii ki, bütün bunlar müasir ədəbiyyatın üslub problemlərinin janr formaları prizmasından öyrənilməsində yeni elmi-tədqiqi marağın yaranmasına sövq etməyə bilməz.

Müasir ədəbiyyatşünaslıq bu təzahürləri ayrı-ayrı əsərlərə və dövrlərə həsr olunan işlərdə qeydə alır, ondan öncəki ədəbiyyata xas olmayan yeni üslub təmayüllərini təsbit edir. Əsasən müxtəlif janr-üslub formalarında ifadə olunan və tipoloji baxımdan təhlili və sistemləşdirilməsinə ehtiyac duyulan üslub təmayüllərinin müxtəlifliyi dissertasiya mövzusunun seçilməsini şərtləndirmişdi.

**Mövzunun öyrənilmə dərəcəsi.** Janr-üslub müxtəlifliyi problematikası kifayət qədər tədqiq edilmişdir. Bu problematikanın ən müxtəlif aspektlərinə, xüsusilə janr və üslub problemlərindən bəhs edən çox böyük nəzəri işlər mövcuddur. Bu baxımdan Q.Pospelovun, N.Utexinin, L.Çernetsin, Q.Quliyevin, M.Qocayevin, A.Hacıyevin, F.Nacıyevanın, S.Qafarovanın və b. araşdırmalarını qeyd etmək olar. Lakin bu cür sanballı elmi-nəzəri bazanın olması ilə yanaşı, istər rus, istərsə də Azərbaycan ədəbiyyatında janr sisteminin yeniləşməsi nöqteyi-nəzərindən müasir nəsrin üslub təmayülləri hələ də ayrıca tədqiqat predmeti olmamışdır.

Müasir nəsr problemlərindən bəhs edən ayrı-ayrı monoqrafiya və dərs vəsaitlərində bu və ya digər dərəcədə üslub və janr xüsusiyyətlərinin ayrı-ayrı məsələlərinə toxunulur. Ancaq XX əsrin sonu – XXI əsrin əvvəli rus və Azərbaycan nəsrində janr yenilikləri ilə əlaqəli şəkildə üslub müxtəlifliyinin müqayisəli öyrənilməsinə dair ümumiləşdirici işlər hələ də mövcud deyil.

**Tədqiqatın obyektini** bədii üslub, janrologiya və janryaratma problemlərinə həsr edilmiş fundamental tədqiqatlar, həmçinin müasir rus (T.Tolstaya, A. Kim, V.Makanin, A.Slapovski, V.Sorokin, V.Astafyev və b.) və Azərbaycan (Anar, Elçin, K.Abdulla, S.Əhmədli, E.Hüseynbəyli, İ. Fəhmi və b.) nəsrinə dair geniş tarixi-ədəbi material təşkil edir. Təhlil dairəsinə həm də XX əsrin sonu – XXI əsrin əvvəllərində yazılmış bir çox digər əhəmiyyətli əsərlər də daxildir.

**Tədqiqatın predmeti** XX əsrin sonunda rus və Azərbaycan nəsrində bu və ya digər janr formaları ilə əlaqəli olan zəngin və çoxşaxəli üslub

müxtəlifliyi, müasir nəsrin müxtəlif janr formalarında təzahür edən üslub yeniləmələrinin tipləri, forma və üsullarıdır.

**Dissertasiyanın elmi yeniliyi.** Dissertasiya işində ilk dəfə olaraq janr innovasiyalarının müxtəlifliyində təzahür edən müasir nəsrin üslub təmayülləri ayrıca tədqiq edilir. 1980-1990-cı və XXI əsrin ilk illərində rus və Azərbaycan ədəbiyyatı materialları əsasında janryaratma və ədəbi üslubun əsas inkişaf təmayülləri xüsusi qarşılıqlı tədqiqata cəlb olunur.

Dissertasiyanın əsas qayəsini qeyd olunan dövrə daha xarakterik olan üslub və janr formaları təşkil edir ki, onların da təhlili zamanı postsovet ədəbiyyatında ən müxtəlif və orijinal janr-üslub cərəyanlarının olması qanunauyğunluğu əsaslandırılır. İlk dəfə bu aspektdə əvvəllər tədqiq edilməmiş bir çox rus və Azərbaycan yazıçılarının əsərləri təhlil edilmişdir.

Bir çox bədii-estetik proseslərin istər ədəbiyyatdaxili, istərsə də ictimai-siyasi faktorlardan asılılığı xüsusilə qeyd olunur.

**Dissertasiyanın məqsədi** XX əsrin sonu – XXI əsrin əvvəlləri rus və Azərbaycan ədəbiyyatında ən müxtəlif janr formalı əsərlərin materialları əsasında müasir nəsrin üslub təmayüllərini tədqiq etməkdir.

Aşağıdakı **vəzifələrin** yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

1. Üslub inkişafının və janr dolğunluğunun tarixi və tipoloji qanuna uyğunluqlarının nəzəri aspektdə təhlili;
2. Üslub təmayüllərinin formalaşmasında janr transformasiyalarının rolunu müəyyən etmək, ənənə və novatorluq məsələlərini, həmçinin bu proseslərin ictimai və ədəbi faktorlarla şərtləndirilməsini araşdırmaq;
3. Qeyd olunan dövr üçün rus nəsrində üslub inkişafı və janr formalaşmasının yolu və formalarını müəyyən etmək;
4. Müasir Azərbaycan nəsrində üslub təmayülləri və janr özəlliklərini nəzərdən keçirmək;
5. Qeyd olunan dövrdə janr-üslub formalarını sistemləşdirmək və onların təsnifatını vermək.

**Tədqiqatın metodları.** Dissertasiyada istifadə edilən metodlar birbaşa qarşıya qoyulan məsələlərin həllindən asılıdır. Tədqiqat işində əsasən tipoloji, qarşılaşdırma və tarixi-müqayisəli metodlardan istifadə edilmişdir.

**Dissertasiyanın nəzəri və praktiki əhəmiyyəti**, ilk öncə, işin tarixi-ədəbi və elmi-nəzəri istiqamətlərindən ibarətdir. İşdə mövcud olan faktiki material və nəzəri müddəalar müasir rus və Azərbaycan nəsrinin, ədəbiyyatın üslub və janrlarının öyrənilməsində istifadə oluna bilər. Tədqiqatın nəticələri həmçinin ədəbiyyat nəzəriyyəsi, rus və Azəbaycan

ədəbiyyatı tarixi fənlərindən mühazirə kurslarında, eləcə də seçmə fənn və seminarlar zamanı istifadə oluna bilər.

Dissertasiyanın **metodoloji əsasını** üslub və janr problemlərinə həsr edilmiş fundamental tədqiqatlar, eləcə də müasir dövr rus və Azərbaycan ədəbiyyatı tarixi üzrə araşdırmalar təşkil edir.

**Müdafiəyə aşağıdakı müddəalar çıxarılır:**

– Üslub və janr qaydalarının özəlliklərinin ayırd edilməsi milli ədəbiyyatların müqayisəli öyrənilməsində, müasir ədəbiyyatın ümumi qanunauyğunluqlarının müəyyən edilməsində mühüm əhəmiyyət kəsb edir.

– Müasir ədəbiyyat iki janr-üslub quruluşu ilə səciyyələnir. Bu, ilk öncə, hazır, bitmiş, özünü təsdiq etmiş formalar (qəti müəyyən edilmiş janrlar) və uyuşqan, bütün transformasiyalar və yenilənmələrə açıq olan qeyri-nümunəvi formalardır. XX əsrin sonu – XXI əsrin əvvəlləri rus və Azərbaycan ədəbiyyatının üslub rəngarəngliyində sonuncular daha çox ön mövqeləri tuturlar.

– Yazıçıların üslubu, bir tərəfdən, bu və ya digər janr formalarını formalaşdırır, digər tərəfdən isə, əsas fikrin realizə olunmasında daha münasib və fərdi üslub konsepsiyasını daha dolğun əks etdirən janrlar əsasında özü də formalaşır.

– XX əsrin sonunda rus və Azərbaycan nəsrində yeni süjet, mövzu və ideyaların yaranmasının əsasını əsatir təşkil edir. Bunun nəticəsində bir çox əsərlərin üslub özəllikləri, janr quruluşu dəyişir, əsərlərdə reallıq və qeyri-reallıq, gerçəklik və nağıl bir-birlərini çox asan əvəz edir.

– XX – XXI əsr rus və Azərbaycan nəsrinin xarakterik üslub təmayüllərindən biri də müəllif janrlarıdır. Qeyd edək ki, müəllif janrları məhz üslub və janr parametrlərinin sintezi əsasında modelləşdirilir.

– Postsovet ədəbiyyatının üslubu daha çox "əski" ədəbiyyatı devirmək məqsədilə klassik ədəbiyyata meydan oxumaqla, ona istehza ilə yanaşmaqla, onun mətnləri ilə sərbəst davranmaqla xarakterizə olunur.

– Nəzərdən keçirilən dövr üçün rus və Azərbaycan nəsrinin üslub formalarının müxtəlifliyi bir qayda olaraq janrların transformasiyası və sintetik janrların yaranması nəticəsində baş vermişdir.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiyanın əsas müddəaları haqqında mütəmadi olaraq kafedra iclaslarında, elmi-nəzəri seminarlarda, ali məktəblərarası, respublika və beynəlxalq konfranslarda məruzələr edilmiş, işin nəticələri elmi məcmuələr və dövri mətbuatda məqalə və tezis formalarında öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi Giriş, üç Fəsil, Nəticə və İstifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. İşin həcmi – ..... səhifədir. İstifadə edilmiş ədəbiyyat siyahısına ..... mənbə daxildir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqat mövzusunun seçimi və aktuallığı, onun obyekti, predmeti, məqsəd və vəzifələri, elmi yeniliyi əsaslandırılır, mövzunun müasir ədəbiyyatşünaslıqda öyrənilmə dərəcəsi şərh edilir, tədqiqat metodları, müdafiəyə çıxarılan müddəalar, işin nəzəri və praktik əhəmiyyəti qeyd olunur, tədqiqatın aprobasiyası haqqında məlumatlar verilir.

**I Fəsil – "Bədii nəsrin quruluşunda janr və üslub nisbəti"** – janr və üslub kateqoriyalarına, onların qarşılıqlı nisbəti ilə bağlı müasir baxışların nəzəri tərəflərinə həsr olunmuşdur. Bütün bunlar işin sonrakı təhlilinin müəyyən mənada nəzəri əsasına xidmət etməyə yönəlmişdir.

Üslub və janr müxtəlifliyi baxımından bədii nəsr problemlərinə maraq artıq XVIII əsrdən başlayaraq, rus ədəbiyyatının ilk tədqiqatlarında yaranmışdır. Bu maraq bu gün də davam edir. Hekayə janrlarının əsrlər boyu inkişafı və onların üslub xüsusiyyətləri baxımından müxtəlif modifikasiyalarının öyrənilməsi tarixinə dair böyük təcrübə toplanmışdır ki, bu da müasir dövr epik əsərlərin (hekayə, povest, roman, epopeya) janr-üslub quruluşunun əsas parametrlərini müəyyən etməyə imkan verir. Bu baxımdan ən problemli məsələlərdən biri epik növlərin hər birinin ayırd edilməsidir.

Son zamanlar ədəbiyyatşünaslıqda (istər ədəbiyyat tarixində, istərsə də ədəbiyyat nəzəriyyəsində) ədəbiyyat problemlərinin sistemli, kompleks şəklində öyrənilməsi meylləri ilə əlaqədar bədii forma probleminin təhlilinə maraq artmışdır. Tədqiqatçılar janr və üslub məsələlərini daha çox bir müstəvidə tədqiq etməyə üstünlük verirlər. Bu fikri tədqiqatçılar onunla əsaslandırırlar ki, janr mütləq özündə müxtəlif dövr və qruplaşmaların üslub törəmələrini ehtiva edir.

Janr anlamını alimlər hər zaman daha konkret və eyni zamanda geniş kateqoriya kimi səciyyələndirilən üslub anlamı ilə əlaqələndirirdilər. V.M. Friçe, P.S. Koqanın əsərlərində aparıcı fiqur kimi, ümumiyyətlə, üslub çıxış edir. Qeyd olunan ədəbiyyatşünaslıq kateqoriyaları cütlüyündə məhz üslub başlıca rol oynayır və üslub janrı təyin edir. Üslub təhlili zamanla bağlı, janr-növ təhlili isə konkret-tarixi yox, statik, zaman xaricində hesab olunurdu.

XX əsrin ortalarında alimlər belə bir fikir səsləndirdilər ki, ədəbi prosesdə artıq janrların parçalanması, atrofiyası müşahidə olunur. Bu gün müasir ədəbiyyat bir tərəfdən hazır, qəti janr formaları, o biri tərəfdən isə transformasiyalara açıq olan qeyri-nümunəvi janrlarla təmsil olunmuşdur. Bu hal XX əsrin sonu – XXI əsrin əvvəlləri ədəbiyyatında daha aydın müşahidə olunur.

Müasir yazıçılar normativ, ciddi nizama salınmış janr quruluşlarına çox nadir hallarda müraciət edirlər. Ona görə də hər hansı bir müəyyən, ənənəvi janra aid edilməsi çətinliklə mümkün olan bədii nəsr nümunələri daha tez-tez yaranır. Lakin bütün bunlar ədəbiyyatşünaslığın "gündəliyindən" janr problemini istisna etmir, hərçənd bu cür fikirlər tədqiqatçılar tərəfindən tez-tez söylənmişdir. Beləcə müxtəlif elmi konsepsiyalar kimi formalaşmış ayrı-ayrı paradiqmalar yarandı. Bu baxımdan, ilk öncə, qəti müəyyən edilmiş, nümunəvi janrlar nəzəriyyəsini (A.N. Veselovski, Y.N. Tınyanov), janr "məzmun forması kimi" nəzəriyyəsini (Q. Qaçev) və ya "janr forması" ilə "janr məzmununun" fərqləndirilməsini (Q.N. Pospelov), janr "üçölçülü konstruktiv bütöv" kimi nəzəriyyəsini (M.İ. Baxtin) və b. qeyd etmək olar. 1960-cı illərdən janr vərəsiliyi, janrların tipologiyası kimi məsələlər yenidən geniş müzakirə olunmağa başladı. Janr problemi ilə maraqlanan V. Boqdanov, A. Esalnek, M. Zinovyeva və digər tədqiqatçılar diqqəti daha çox janr məzmununun əsərin üslubuna təsirinə yönəldirdilər.

Üslub xüsusiyyətlərindən bəhs edərkən, tədqiqatçılar üç əsas yanaşmanı və müvafiq olaraq bu problemin üç aspektini qeyd edirlər: əsərin təkrarlanan xüsusiyyətləri, onun "üslub əlamətləri" əsasında tanınma effekti; əsərin bədii quruluşunun ən müxtəlif qatlarına aid olan bu əlamətlərin qarşılıqlı əlaqəsi və bir-birindən asılılığı; üslub anlamının qeyri-dəqiqliyi, qeyri-müəyyənliyi.

Milli ədəbiyyatların müqayisəli öyrənilməsində, müasir ədəbiyyatın ümumi inkişaf qanunauyğunluqlarının ayırd edilməsində janr qanunlarının və üslub xüsusiyyətlərinin tədqiqi böyük əhəmiyyət kəsb edir. Ötən dövrlərdən fərqli olaraq, bu gün janr-üslub formaları daha sürətlə dəyişikliklərə məruz qalır və ona görə də ədəbiyyatşünaslığın qarşısında duran əsas vəzifə – ən müxtəlif ədəbiyyatların materialları əsasında bu hadisələrin öyrənilməsidir.

**"XX – XXI əsr rus nəsrinin üslub və janr müxtəlifliyi" adlı II Fəsildə** qeyd olunan dövr üçün aparıcı üslub təmayüllərinin əks olunduğu rus nəsrinin ən önəmli əsərləri nəzərdən keçirilir.

XX əsr rus ədəbiyyatındakı mürəkkəb durum, qarşıdurmalarla dolğun olan gerçəklik və keçid dövrünün realiləri istər-istəməz ədəbiyyata təsir edir, onu yeni məzmunla zənginləşdirirdilər ki, bu da artıq vahid, ənənəvi formalara sığmırdı. Yazıçılar öz konsepsiyalarını daha dolğun əks etdirən janr formalarına üstünlük verir, həm də fərdi müəllif janrlarını modelləşdirirdilər. Bu XX əsr rus nəsrinin üslub təmayüllərindən biridir.

Bir neçə janr-üslub modellərinin birləşməsi yeni sintetik janrların yaranmasına gətirdi: A.Kimin "Ata-Meşə" roman-nağılı və "Dələ" roman-ibrətli hekayəsi, S.Vasilenkonun "Axmaq qızcığaz" roman-qissəsi, K.İkramovun "Mənim atamın evi" roman-salnaməsi, Y.Popovun "Yaşıl musiqiçilərin" əsl əhvalatı" roman-şərhi və s.

XX əsrin sonunda rus nəsrində yeni süjetlərin, mövzuların, ideyaların təməlini əsatir təşkil etməyə başlayır. Şərti reallıq real aləmi əvəzləyir, bir janr kimi isə roman yeni sima əldə edir. Bu baxımdan V.Makaninin, R. Kireyevin, A.Kurçatkinin və bir çox başqa yazıçıların tapıntıları da çox maraqlıdır. Povest də maraqlı transformasiyaya məruz qalır. Əsatirin janr yaradıcı təməl kimi istifadə olunması T.Tolstayanın yaradıcılığını da səciyyələndirir. O, özünün "Kıs"/ "Кысь"(2000 il) romanında əsatirə müxtəlif yanaşmalar sintezindən istifadə edir. Janr baxımından T. Tolstayanın əsəri ibrətli hekayə, nağıl, dastan, utopik əfsanə, satirik təhkiyənin sintezidir. Bununla belə baş qəhrəman Benediktin həyatını təsvir edən satirik təhkiyə ilə folklor janr formalarının cəmləşdiyi metaforik aləm arasında aydın sədd çəkilir.

Yeni üslub təmayülləri A.Slapovskinin "Qardaşlar" (1995 il) əsərində də özünü büruzə verir. Burada küçə nəğmələri ilə nəsr mətnin sintezini müşahidə etmək olar. A.Slapovskinin əsərlərinin üslubu "bu dəqiqə" effekti ilə fərqlənir, hadisələr sanki oxucuların gözləri önündə baş verir, təhkiyə isə ritorik və model konstruksiyaları ilə dolğundur. Əhvalat gah gələcəkdə, gah da keçmişdə baş verir. A. Slapovskinin nəsri metaforikdir və onun əsərlərində müəyyən sosial təbəqələrin nümayəndələrinin xarakterini yaratmağa yönələn nizamsız leksika özünəməxsus rol oynayır.

Hələ sovet dövründə bədii forma ilə təcrübələr aparan V. Astafyev, 1977-ci ildə "Hökmdar balıq" novellalı romanını, sonralar isə qəhrəmanlıq janrı olan qəsidənin transformasiya edildiyi "Rus bostanına mədhiyyə" əsərini yazır. O, həm də orijinal formalı əsərlərin, o cümlədən, "Nişanələr" mənsur şeirinin müəllifidir. Postsovet dövründə yazıçının bu əsəri nəinki məzmun, həm də forma baxımından orijinal olan "Lənətləndirilmişlər və öldürülmüşlər" (1990-1994 illər) romanını, "Şən əsgər"

(1987-1997 illər), "Elə yaşamaq istəyirəm ki" (1994-1995 illər) povestlərini və bir neçə başqa əsərlərini yaratmağa sövq etdi.

XX əsrin sonu – XXI əsrin əvvəlləri ədəbiyyatının daha bir xarakterik üslub xüsusiyyəti kimi mətnin minimumlaşdırılmasına meylliliyi qeyd etmək olar. Bunu əsərlərin adlarında vurğulamaqla, yazıçılar daha çox "kiçik" əsərlər yaratmağa çalışırlar: K.Loşkarevin "Gizli zirzəmidən qeydlər" "mini-romanı", A.Borodının "Kibritlər" "kiçik romanı", V.Kononovun "Ağlı başında" "qısa romanı", L.Petruşevskayanın "Yeni Faust" "parçası", Z.Boquslavskayanın "Cənuba baxan pəncərələrlə" "eskizi", "Gözə görünür, nur saçır, parlayır" "etüdü", N.Qorlanovanın "Eyvanda günəbaxanlar" "əhvalatı", A.Soljenitsının "Kiçiciklər" əsəri və bir çox başqaları.

Müəllif janrının parlaq nümunələrindən biri kimi Y.Kovalın "Suyer-Vıyer" (1988 il) əsərini də qeyd etmək olar. O, özü bu əsəri "perqament" adlandıraraq, bununla da əsərin ənənəvi janrlardan fərqini və öz yaradıcılıq sərbəstliyini aydın şəkildə qeyd etmişdir.

Gerçəkliyin əksi kimi ədəbiyyatın ənənəvi təsvirinin yenidən nəzərdən keçirilməsi ilə yanaşı yeni "yenidənqurma" dövrü postmodernizmi ön plana çəkdi. Bu, ilk öncə, klassiklərin "diskreditasiyası"na ("nüfuzdan salınması"na) meyllilikdə özünü göstərdi. İ. Zolotusski bunu "klassikanın güllələnməsi kampaniyası" adlandırmışdı. Bugünki ədəbiyyat klassik dövr rus yazıçılarının personajlar sisteminə geniş müdaxilə edir. Məsələn, Baxıt Kenjeyevin "İvan Bezuqlov" romanında personajlardan biri, kommersiya bankında mühasib işləyən Fyodor Tütçev, digəri isə, sürücü, Mixail Lermontov, bank sahibinin köməkçisi isə – Yevgeni Baratınski adlandırılmışdır. Bütün bunlar "klassika ilə bir oyundur" ki, bu da V. Sorokinin də romanında daha cəfəng forma almışdır. O, istehsalat romanına ("Dördünün qəlbi"), XIX əsr klassik romanına ("Roman"), məktub formalı romana ("Mavi piy") və s. parodiyalar yazmışdır.

Satirik janrlar müasir ədəbiyyatın daha bir janr-üslub təmayülünü meydana gətirir (Vyaç. Pyetsuxanın "sosial qroteskləri" ("sosial mübaliğələri"), İ. Uspenskinin "istehzalı komik eposu", V. Voynoviçin "Bizim olmadığımız yerdə", "Möhtəşəm təbliğat", A. İvançenkonun "Qırmızı atın çimməsi" əsərləri və s.). Lakin bu əsərlərdə janr saflığı nağıl-fantastika elementləri və xoşbəxt sonluqların olması ilə korlanır. İstehzalı əhval-ruhiyyəyə malik yazıçılar tərəfindən isə "pastiş" janrı daha geniş istifadə olunur. İlk öncə bu baxımdan yaradıcılığında sosial satira ilə mistikanın birləşdiyi V. Pelevini qeyd etmək olar.

Fantastika kitablarının nəşri də genişlənməyə başlayır. Rıbakov, Stolyarov, Y. və L. Lukinlər, L. Verşinin, A. Lazarçuk kimi gənc yazıçılarla yanaşı, bu janrın "veteranları" da (Kir Bulıçov, Vladislav Krapivin, Olqa Larionova və b.) fantastika yazırdılar. Onlar, əsasən, "fentezi" adlandırılan janra müraciət edirdilər. Bu janra tarixi-fantastik roman yaxındır. Müq. et: Andrey Valentinovun "Fərari", "Boz çalağan", "Overn kliri", "Göylər şənlik edir", "Oriya" romanlar silsiləsi, Lev Verşininin "Əbədilik astanasında iki nəfər", "Hökmdarlar dövrü" əsərləri və s.

Ədəbiyyatın müasir inkişaf dövrü ən müxtəlif formalarda cərəyan edən detektiv janrına da bir çox dəyişikliklər gətirdi. Məsələn, tarixi (Y. Latınina), siyasi (D. Koretski, E. Topol), mistik (A. Voronin) və əsasən qadınlar tərəfindən yazılmış istehza detektivləri (A. Marinina, D. Dontsova, P. Daşkova, T. Ustinova, T. Polyakova və b.). Bundan başqa adətən kişi oxucuları tərəfindən rəğbət qazanan satirik, casus detektivlərini də (A. Kivinovun "mentlər" haqqında silsilə əsərləri) qeyd etmək olar. Onların müəllifləri, əsasən, kişilərdir. Qeyd olunan dövrdə L.Leonov, V.Belov, V.Rasputin, V.Astafyev, M.Kurayev və b. realizm dəsti-xəttini davam edir, lakin eyni zamanda onların janr-üslub axtarışları kifayət qədər müxtəlif olmaqla yanaşı, həyatın realist üsulla əks edilməsi çərçivəsinə sığan bir sıra cərəyanların yaranmasına da səbəb olur. Onlar öz əsərlərinin janr quruluşuna zamanla şərtləndirilən yeni xüsusiyyətlər gətirdilər.

Rus ədəbiyyatında müşahidə olunan forma və janrların yenilənməsi əsas ənənəvi üsul və vasitələrin saxlanılması ilə səciyyələnirdi. Dağıtmaq və yaratmaq, ənənələr və novatorluq – XX əsrin sonu – XXI əsrin əvvəlləri rus nəsrində müşahidə olunan xarakterik təmayüllərdir. Bunu birinci fəsildə təhlil edilmiş postsovet dövrü rus nəsrinin əsərləri daha aydın nümayiş edir.

**"XX əsrin son onilliyi – XXI əsrin əvvəlləri Azərbaycan nəsrinin üslub cəhətləri və janrları" adlı III Fəsildə** qeyd olunan dövr üçün Azərbaycan nəsrinin üslub və janr quruluşlarında cərəyan edən hadisələr nəzərdən keçirilir.

Rus ədəbiyyatında olduğu kimi, 1980-ci illərin sonlarından Azərbaycan ədəbiyyatında da ötən dövrlərdən fərqli, tamamilə yeni inkişaf dövrü başlayır. Bu dövr yeni materialın təqdim olunmasında yeni formaların axtarışı ilə səciyyələnir. Bu estetik kəşflər, fərdi bədii üslubların yaradılması, janr əlvanlığının və sərhədlərin genişləndirilməsi, realizmin sonrakı inkişafı və eyni zamanda postmodernizmin mənimsənilməsi və onun Azərbaycan variantının yaradılması dövrüdür.

Müasir Azərbaycan nəsrinin janr-üslub rəngarəngliyində postmodernist təmayüllərlə yanaşı ənənəvi realizm dəsti-xətti də öz mövqelərini qoruyur, lakin o da tədricən müasir modernist nəsimlərinin təsirinə məruz qalır. Realizmlə modernizmin sintezinə olan bu meyl, məsələn, Anarın yaradıcılığında hər zaman müşahidə olunsa da, onun 1990-cı illərdə yazdığı əsərlərində daha da artır. Yazıçının "Qırmızı limuzin" sürrealist hekayəsində əsas yeri qeyri-reallıq tutur və burada gerçəkliklə yuxunu ayırmaq çox çətindir.

1990-cı illərdə Azərbaycan yazıçılarının yaşlı nəsil nümayəndələri əvvəlki yaradıcılıqlarından bir çox məqamlarda fərqlənən əsərlər yaradır. Anarın əsərləri ilə yanaşı, məsələn, İsa Muğannanın "İsa, Musa", Elçinin "Meydan" trilogiyası, "Sarı gəlin", "Qarabağ şikəstəsi" və yeni dövr poetikasını özündə ehtiva edən digər əsərləri qeyd etmək olar.

Gənc yazıçıların yaradıcılığında ötən dövr ədəbiyyatının mövzu və problemləri özünəməxsus tərzdə davam etdirilir. Bu meyllər, əsasən, S. Alışarlı, Q. Əfsəroğlu, E. Əlləzoğlu kimi yazıçıların və b. yaradıcılığında özünü daha aydın büruzə verir. 1960-70-ci illərin "kənd nəsrindən" müəyyən dərəcədə uzaqlaşaraq, onların hər biri yeni dövrün tələbləri ilə şərtləndirilən təkrarsız üsluba və tamamilə fərqli – "kinematoqrafizm", "nəsrin süjetsizliyi", Markes ənənələrinə sadiqlik və s. bu kimi poetik meyllərə malikdirlər.

Postsovet dövrü Azərbaycan ədəbiyyatının bir çox əsərlərinin mövzusu cəmiyyətdə, dövlət quruluşunda baş verən sosial-siyasi proseslərin Qarabağ problemi müstəvisində daha çox işıqlandırılması olur. Nəticədə böyük tematik cəhət yaranır – müasir ədəbiyyatda müəyyən yerini tutan və müxtəlif janr-üslub tərzində reallaşan Qarabağ müharibəsi haqqında ədəbiyyat. Bu mənada günün aktual problematikasının təhlili Sabir Əhmədlinin («Ömür urası») və A. Abbasın («Dolu») yaradıcılığı üçün daha səciyyəvidir.

Qarabağ problemi həm də ən müxtəlif janr formalarında gənc nasirlərin, o cümlədən, Sevinc Nuruqızının ("Sos...sos...sos..."), Lətif Vəlizadənin ("Matəm gülləri"), Elçin Mehrəliyevin ("Sınıq araba") və b. hekayələrində işlənməkdədir. Sonuncu bu mövzuya roman janrında da müraciət etmişdir ("90-cı illər"). Aktual olan Qarabağ probleminin maraqlı nəqlini Günel Anarqızı "Qara bəxt" hekayəsində verir. "Qarabağ" və "Qara bəxt" sözlərinin müəyyən həmahəngliyindən çıxış edərək, gənc yazıçı bu günün ən aktual problemlərinə həsr edilmiş yüksək bədii, lirik nəsr nümunəsi yaratmağa müyəssər olmuşdur. Qarabağ problemi onun həm də "Şuşa", "Arzu" kimi hekayələrində də öz əksini tapmışdır. Günel Anarqı-

zının üslubuna xüsusi, yalnız ona məxsus yazı tərzi, psixoloji təsvirin dəqiqliyi və alleqoriklik xasdır.

Rus nəsrində olduğu kimi, Azərbaycan nəsrinə də janrların qarışıqlığı səciyyəvidir. "İkinci İohan" əsərinin qarışıq janr quruluşlu olmasını vurğulayan Afad Məsud, onu "hekayə-roman" adlandırır. S. Rüstəmxanlının "Həyat kitabı" əsəri ən müxtəlif janr formalarının elementlərini özündə birləşdirir. Sonralar tarixi mövzuya müraciət edən yazıçı, hər dəfə tarixi romanın yeni janr modifikasiyalarından istifadə edir. Bu baxımdan yazıçının uzaq keçmişdən, qədim türklərin mənşəyi və Oğuz xanın şəxsiyyətindən bəhs edən "Göy Tanrı" romanını misal gətirmək olar. Burada yenə də elmi tədqiqat üslubu özünü göstərir.

Tarixi mövzunun postmodernist üsulu ilə işlənməsinə, xüsusilə, tarixi şəxsiyyətlərin bilə-bilə kiçildilməsi, sabit stereotiplərin dağıdılmasına İlqar Fəhminin "Qarğa yuvası" romanında rast gəlmək olar. Müəllif tərəfindən "yarıtarixi roman" kimi səciyyələndirilən bu əsərdə, Koroğlu obrazı və cəlalilər hərəkatı tamamilə başqa, dastandan fərqli bir formada təsvir edilmişdir. İ. Fəhminin kitabı istər Azərbaycan, istərsə də rus ədəbiyyatında çox geniş yayılmış bədii model əsasında qurulmuşdur: oxucuda maraq oyatmasına xidmət edən mistika və ixtilaf gərginliyi.

Müasir Azərbaycan nəsrinin üslub mənzərəsində təsəvvüf, mistik başlanğıc geniş yer tutur. Anarın "Otel otağı" povesti bu baxımdan çox səciyyəvidir. Əlibala Hacızadənin "Möcüzə" romanı isə artıq öz adı ilə oxucunu əsərin quruluşunda mistik elementlərin axtarışına sövq edir. Mistik başlanğıc burada fövqəltəbii bacarıqlara malik Leyla obrazı ilə bağlıdır. Qeyd edək ki, mistik başlanğıc həm də gənc yazıçıların, o cümlədən, Mübariz Cəfərlinin "Üzbəüz", Firuz Məmmədlinin "Köhnə məscid həyəti" hekayələrində də müşahidə olunur.

Janr baxımından gənc yazıçı E. Hüseynbəylinin yaradıcılığı da çox maraqlıdır. 1990-cı illərdə ədəbiyyata qədəm qoyan yazıçı, bu gün mətbuatda janr-üslub nöqteyi-nəzərindən özünəməxsus əsərləri ilə çıxış edən, maraqlı nasirlərdən biridir. Onun 2003-cü ildə işıq üzü gördüyü "Balıq adam" romanında yuxu ilə gerçəklik, şüurla təhtəlşüur, fantastika ilə reallığın bir-birlərini əvəzlənməsi müstəvisində postsovet dövrü insanının həyatı, onun cəmiyyətə qarşıdurması açıqlanır. Əsərin janr-üslub palitrası müəllif ideyasının açıqlanmasına xidmət edən allüziya, assosiasiya, kinayə və yarıeyhamlarla zəngindir.

İ. Fəhminin və E. Hüseynbəylinin yaradıcılıqları postmodernist cərəyanına aid edilsələr də, onlar Q. Hərisçi, S. Sədaqətoğlu, Balaxan, M. Köh-

nəqala və b. kimi daha radikal postmodernistlərlə qarşılaşdırılır. Bu cərəyanın nümayəndələri həyatın qaranlıq tərəflərinin qəsdən təsvir edilməsinə meylliliklə, Məhəmməd Füzulidən başlayaraq, klassikləri tam inkar etməklə fərqlənirlər. Onların ədəbi etalonu F. Selin, O. Pamuk, V. Sorokindir. Nəinki ölkəmizdə, hətta xaricdə böyük oxucu marağına malik olan Kamal Abdullanın yaradıcılığı Azərbaycan ədəbiyyatının müasir inkişaf dövrünün fərqli və əlamətdar hadisəsidir. Onun "Gizli Dədə Qorqud", "İstintaq", "Yarımçıq əlyazma", "Sehrbazlar dərəsi", "Dəvə yağışı" və bir çox başqa əsərləri özündə müasir ədəbi prosesin aparıcı, mütərəqqi təmayüllərini, xüsusilə, yeni üslub, yeni janr formalarının axtarış səylərini birləşdirmişdir.

Yazıçı kimi Kamal Abdullanın danılmaz xidmətlərindən biri ondan ibarətdir ki, bu gün Amerika, Fransa, Rusiya, Türkiyə, Polşa, Braziliya və s. ölkələrin nəşriyyat evləri tərəfindən məmnuniyyətlə çap olunan və milli ədəbiyyatımızı xarici ölkələrdə layiqincə təmsil edən əsərləri sayəsində Azərbaycan ədəbiyyatı Azərbaycan hüdudlarından çox-çox uzaqlara addımladı. K.Abdulla haqqında nəinki vətəndə (N. Cəfərov, R. Kamal, A. Talıbzadə, T. Salamoğlu, V. İbrahimoğlu və bir çox başqaları), çoxşaxəli yaradıcılığı sayəsində müasir Azərbaycan nəsrinin bütün özəlliklərini dərk edən hətta xarici ölkələrin aparıcı tənqidçiləri də (Fransada Klod Aliber, Türkiyədə İrfan Ülkü və b.) yazırlar.

Detektiv roman janrını Azərbaycan ədəbiyyatında uğurla inkişaf etdirən Çingiz Abdullayevin adı olmadan müasir Azərbaycan nəsrini təsəvvür etmək çətindir. O, siyasi detektivin banisi kimi çıxış edir və bu janrda çalışan ən məşhur yazıçılarla uğurla rəqabət aparır.

İstər rus, istərsə də Azərbaycan ədəbiyyatşünaslığında tez-tez "qadın nəsri" termininə rast gəlinir. "Qadın nəsri" Natella Osmanlı, Rəna Yüzbaşı kimi gənc yazıçıların yaradıcılığı ilə təmsil olunur. Hətta Rəna Yüzbaşının "Cəhənnəmdə bütöv bir əbədilik və bir dəqiqə də artıq" povesti Milli kitab mükafatının lonq-siyahısına daxil edilmişdir. O, Moskvanın məşhur "Эксмо" nəşriyyat evində çap edilmiş "*From: with love* Sərçəcik", "Skinxed" kimi əsərlərin də müəllifidir.

Tədqiq edilən dövrdə yazılmış bir çox əsərlər hekayə, povest, roman kimi ənənəvi janr formalarının ya deformasiyasını və ya onların bədii materialın digər, ədəbiyyat xarici, folklor, sənədli üsullarla təqdim edilməsi formaları ilə sintezini təmsil edir. Müasir Azərbaycan ədəbiyyatı nəsr formalarının janr-üslub quruluşuna janr formasını zənginləşdirən yenilik gətirir. Eyni zamanda, yazıçılar öz ideyalarının yazdığı əsərlərin bədii toxumalarına tamamilə nüfuz etməyə imkan yaradan həyati

materialın janr-üslub ifadəsinin daim yeni üsullarını axtarırlar. Bununla belə onlar müasir dünya ədəbiyyatının astanasında olan rus nəsri kimi, müasir Azərbaycan nəsrini zənginləşdirirlər.

**Nəticədə** tədqiqatın yekunları və əldə edilmiş əsas nəticələr ümumiləşdirilir.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı məqalələrində və tezislərində əks olunmuşdur:**

1. Постмодернизм в русской прозе 1980-1990-х годов и классическая литература // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Bakı : Mütarcim, 2006, №5, s.123-125.

2. Особенности романного построения в творчестве А.Кима // Elmi xəbərlər,Azərbaycan Dillər Universiteti, Bakı, 2008, №2, s.283-287.

3. Особенности жанровой структуры эпической прозы // Dil və ədəbiyyat, beynəlxalq elmi-nəzəri jurnal. Bakı Dövlət Universiteti. Bakı,2009,№ 2(68), s.119-120.

4. Жанрово- стилевое своеобразие рассказов Анара 1990-х годов // Aspirantların və Gənc tədqiqatçıların XIII Respublika elmi konfransının materialları. Azərbaycan Dövlət İqtisad Universiteti,Bakı, 2009, s.207-208.

5. Жанровая эволюция прозы Анара // Dil və ədəbiyyat beynəl-xalq elmi-nəzəri jurnal. Bakı Dövlət Universiteti, Bakı, 2009, № 5 (71), s. 186-187.

6. Панорама жанров и стилей современной русской прозы // Диалог языков и культур СНГ и ШОС в XXI веке: сборник материалов VI международного форума, Баку, 8-11 ноября 2010 г., часть II, Москва, стр. 93-96.

7. Эволюция жанрово-стилевых форм в современной литературе (на материале азербайджанской прозы) // Філологічні науки, Випуск 14, Полтава, 2013, с.22-29.

**Bagirova Sabina İdris**

## STYLISTIC TENDENCIES IN THE MODERN RUSSIAN AND AZERBAIJANI PROSE (The end of XX – the beginning of XXI centuries)

## SUMMARY

The scientific thesis consists of the introduction, three chapters, conclusions and the list of applied literature.

The first chapter "Correlation of the genre and the style in the structure of prose" is dedicated to the theoretical issues related with modern views on the categories of the genre and the style, and on their correlation. All of this would be used as a theoretical basis for the further analysis.The acquirement of a genre's lows and peculiarities of a style is very important for comparative analysis of national literatures, for exposure of some common regularities of the development of the modern literature. Genre and stylistic forms change nowadays swifter than in the other epoch. And the task of the literary criticism is studying of these occurrences on the materials of different cultures.

In the second chapter – "The stylistic and genre variety of the Russian prose of XX – XXI centuries" – are considered the more important works of Russian prose, in which are reflected the leading stylistic tendencies of the concerned period of time. The observed renewal of forms, genres in Russian literature is combined with the observance of the main traditional methods and means. Destruction and construction, traditions and innovation are the distinctive tendencies observed in Russian prose of the end of XX – the beginning of XXI centuries. This fact demonstrates all analysis in the chapter works of Russian prose of the post-Soviet period visually.

In the third chapter – "The stylistic direction and genres of Azerbaijani prose of the last decades of XX – the beginning of XXI centuries" – are considered the processes proceeded in the stylistic and genre structure of Azerbaijani prose of the concerned period of time. The modern Azerbaijani prose introduces a novelty in the genre and stylistic structure of the prosaic forms, and this novelty enriches the given genre form. At the same time constantly the authors search new methods of genre and stylistic reflection of the lifelike material, which would completely promoted the embodiment of their ideas in the artistic material of the works.

In the **conclusion** the main results of the research are summarized.

Çapa imzalanıb: 20.02.2014.
Format: 60x84 1/16. Tiraj: 100.

«Mütərcim» Nəşriyyat – Poliqrafiya mərkəzi
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru